**«Vergilər uşaqların gözü ilə» adlı rəsm müsabiqəsi**

1 İyun - Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Vergilər Nazirliyinin təşəbbüsü və Tofiq İsmayılov adına Uşaq-Gənclər Yaradıcılıq Sarayının Rəsm Qalereyasının dəstəyi ilə «Vergilər uşaqların gözü ilə» adlı onuncu rəsm müsabiqəsi keçiriləcək.

Gənc nəslin vergi haqqında anlayış və biliklərini artırmaq, gələcəyin potensial vergi ödəyicilərinə vergi mədəniyyəti aşılamaq istiqamətində hər il təşkil olunan sərginin bu il 10 illik yubileyidir. Qeyd etmək lazımdır ki, ötən illər ərzində təşkil olunmuş bu sərgilərdə məqsəd vergi haqqında biliklərin uşaqların başa düşə biləcəyi formada onlara çatdırılması, gənc nəsil arasında ilkin vergi biliklərinin formalaşdırılması və gələcək nəsillərə ötürülməsi olub.

Vergilər Nazirliyi vergi biliklərinin təbliği prosesində Təhsil Nazirliyi ilə sıx əməkdaşlıq edir. Məktəblərdə vergi mövzusunda dərsdən əlavə, xüsusi təlimlər keçirilir. Uşaqlar valideynlərinin və müəllimlərin köməyi ilə vergi barədə bilikləri mənimsəyir. Rəsm müsabiqələri bu biliklərin daha geniş çatdırılması və uşaqlar tərəfindən mənimsənilməsinin stimullaşdırılması üçün daha bir vasitədir. Bu müsabiqələrdə uşaqlarda vergi barədə formalaşdırılmış biliklər kağız üzərinə köçürülür.

Müsabiqələrdə iştirak edən rəsm əsərləri Tofiq İsmayılov adına Uşaq-Gənclər Yaradıcılıq Sarayının Rəsm Qalereyasına təqdim olunur və münsiflər heyəti tərəfindən qiymətləndirilir. Sərgidə isə bütün təqdim olunan rəsm əsərləri nümayiş etdirilir. Rəsm müsabiqəsi 5-8, 9-12 və 13-17 yaş kateqoriyalarına daxil olan iştirakçılar arasında keçirilir. Rəsm müsabiqələri çərçivəsində asfalt üzərində rəsm və hekayə müsabiqəsi də keçirilir. Hər il 250-dən çox rəsm əsərinin təqdim olunduğu sərgilərdə rəsm əsərlərinin müəllifləri sertifikatla, qaliblər isə xüsusi diplom və hədiyyələrlə təltif olunur.

Tədbirdə nümayiş olunan rəsm əsərləri jurnal şəklində çap olunur. «Vergilər uşaqların gözü ilə» adlanan bu jurnal rəsm müsabiqəsinin iştirakçılarına paylanır. Azərbaycan və ingilis dillərində çap olunan jurnal, həmçinin, Vergilər Nazirliyinin il ərzində iştirak etdiyi bütün sərgilərdə, nazirliyin təşkil etdiyi digər tədbirlərdə paylanır.

Qeyd olunmalıdır ki, mükafata layiq görülmüş rəsm əsərlərinin çoxu hazırda Vergilər Nazirliyinin inzibati binasının divarlarında və nazirlik tərəfindən hazırlanmış «Müstəqil Azərbaycanın vergi sistemi» adlı xüsusi nəşrdə də öz əksini tapmışdır.

Ötən illər ərzində sərgidə ümumilikdə 2500-ə yaxın rəsm əsəri iştirak etmişdir. Bu illər ərzində sərgiyə təqdim olunan rəsmlər də xeyli təkmilləşmiş, mövzu çalarları zənginləşmişdir.

Hər  il keçirilən müsabiqə iştirakçıların yüksək marağına səbəb olur. Bu il də «Vergilər uşaqların gözü ilə» sərgisinin yubiley tədbiri kimi yüksək səviyyədə keçirilməsi nəzərdə tutulmuşdur. Ötən illərdən fərqli olaraq, bu il müsabiqəyə 1 iyun tarixində H.Cavid adına parkda yekun vurulacaqdır. Final günü rəsm işlərinin sərgisi ilə yanaşı, qaliblərin təntənəli şəkildə təltif olunması və uşaqlar üçün böyük şənliyin təşkili nəzərdə tutulmuşdur.

Müsabiqədə iştirak etmək istəyənlər rəsmlərini 15 may 2012-ci il tarixədək T.İsmayılov adına Uşaq-Gənclər Yaradıcılıq Sarayının «Uşaq dünyası» rəsm qalereyasına (28 May küçəsi, 21) göndərməlidirlər.